**UOT 94 (479.24)**
**https://doi.org/10.59849/2218-4783.2024.2.27**

**MUSA RƏHİMOĞLU-QULİYEV**

# XIX ƏSRDƏ NAXÇIVAN HƏRB TARİXİ "QAFQAZ ƏRAZİLƏRİNİN VƏ TAYFALARININ TƏSVİRİ ÜÇÜN MATERİALLAR"DA VƏ "QAFQAZ MƏCMUƏSİ"NDƏ

*Məqalədə 1881-ci ildə Tiflisdə Qafqaz təhsil idarəsinin nəşr etdirdiyi jurnalın yaranmasından və həmin topluda Naxçıvanın hərb tarixindən bəhs edən yazılardan söhbət açılır.*

*Məqalədə həmçinin 1862-ci ildə Böyük knyaz Mixail Nikolayeviçin təşəbbüsü ilə nəşr olunan "Qafqaz məcmuəsi"ndən də söhbət açılır. Bu toplu Qafqaz hərbi dairəsinin hərbi-tarix şöbəsi tərəfindən nəşr olunurdu. Jurnalın əsas məqsədi yaşanmış hərbi əməliyyatların təcrübəsinin öyrənilməsi idi. Bu jurnalda tarixi arxiv sənədləri ilə yanaşı hərbi döyüşlərin iştirakçılarının xatirələri də nəşr olunurdu. Bu jurnalların hər ikisində Naxçıvan Kəngərli süvarilərindən və hərbi sərkərdələrin döyüş fəaliyyətlərindən danışılır.*

*Hər iki topludakı Naxçıvan hərb tarixindən bəhs edən yazılar ilk dəfə elmi dövriyyəyə gətirilmişdir.*

**Açar sözlər:** *I Kalbalı xan, Ağa Məhəmməd şah Qacar, Süleyman xan, Qafqaz müharibələri, Kəngərli tayfası, Naxçıvan hərb tarixi, sərkərdə.*

**Giriş.** "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu" Qafqazda yaşayan xalqların və onların ölkələrinin tarixindən, etnoqrafiyasından, folklorundan, coğrafiyasından və s. bəhs edən məcmuə olmuşdur. Bu məcmuə 1881-ci ildə Qafqaz Təhsil Dairəsi tərəfindən Tiflisdə nəşrə başlamış, 1929-cuilədək çıxmışdır. Topluya ilk rəhbərlik edən Qafqaz Təhsil İdarəsinin müdiri K.P.Yanovski olmuşdur. O, 1902-ci ildə vəfat etmişdir.

Məcmuədə Qafqaz xalqlarının və ölkələrinin, o cümlədən Azərbaycanın və azərbaycanlıların tarixi etnoqrafiyası, folkloru və adət-ənənələri, ayrı-ayrı yaşayış məntəqələri, maddi-mədəniyyət abidələri haqqında materiallar nəşr olunmuşdur. Bu toplu XIX əsrin sonlarında olduqca oxunaqlı olmuşdur. Buna görə də professor V.F.Miller bu məcmuənin elmi əhəmiyyəti haqqında 1893-cü ildə "Xalq maarifinin Nazirliyinin jurnalında" əhatəli resenziyalar çap etdirmişdir. Toplu 1881-ci ildən 1915-ci ilədək Tiflisdə Qafqaz Canişinliyinin Baş İdarəsinin mətbəəsində nəşr olunmuşdur. Birinci Dünya Müharibəsi başladığından məcmuə öz nəşrini dayandırmışdır. Ancaq 1926-cı ildə Şimali Qafqaz dağlı xalqlarının ölkəşünaslıq assosiasiyalarının ciddi təşəbbüsü sayəsində 45-ci buraxılış Mahaçqalada işıq üzü görmüşdür. Sonuncu, 46-cı buraxılışı da 1929-cu ildə Mahaçqalada nəşr olunmuşdur. Əsasən Tiflisdə nəşr olunan bu topluda Qafqazda yaşamış sərkərdələrin də hərbi fəaliyyətindən bəhs etmişlər.

Naxçıvanlı məşhur sərkərdə Kalbalı xan Kəngərli haqqında olan bir əlyazmanın ruscaya tərcüməsi də bu topluda öz əksini tapmışdır.

"Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu"nun 1901-ci ilə aid 29 nömrəsindəki A.İ.Tumanovun məqaləsində Müqəddəs Foma monastırında saxlanılan əlyazmada Naxçıvan xanı I Kalbalı xana aid hissəsi çox maraqlıdır. Azərbaycancaya tərcümədən əvvəl deyək ki, burada I Kalbalı xanın hərbi fəaliyyətinə aid yeni faktlar vardır. Əslində əlyazma Ağa Məhəmməd şah Qacara ithaf edilib. Əlyazmadakı qeydlərin müəllifi onun müavini, Müqəddəs Foma məbədində yaşayan arximandrit Avraam Astabadskidir. Əlyazmanın yazılma tarixi 12 yanvar 1796-cı ilə aiddir. "Bizim zəmanədə Məhəmmədhəsən xanın oğlu,

güclü və böyük hökmdar Ağa Məhəmməd xan bütün İran ərazilərini fəth edərək özünü şah elan etdi və Tehranda yaşamağa başladı. O, 1791-ci ildə (hicri 1240-cı il) çoxsaylı qoşunla Təbrizə və Mərənd vilayətinə gəldi. Oradan Azərbaycanın bütün xanlarını (Ərdəbildən Urmiyayadək) öz yanına çağırdı. O, Ehsan xanın oğlu, Naxçıvanın igid hakimi Kalbalı xanı da yanına dəvət etdi. Bütün xanlar ehtiramla Ağa Məhəmməd xanın yanına getdilər və hamısı ehtiramla onun tələbəsi olduqlarını bildirdilər. O, ehtiramla onları qəbul etdi, onların hər birindən qardaşlarını, xanımlarını yaxud uşaqlarını girov götürərək, hakimiyyətlərini özlərinə qaytardı. Amma gürcü çarı II İrakli, Şuşa və İrəvan qalalarının hakimləri ona tabe olmadılar. Ağa Məhəmməd xan yaşadığı Tehrana qayıtdı. İki ildən sonra o, Süleyman xanı Təbrizə göndərdi. Süleyman xan Təbrizə gələn kimi Kalbalı xan Naxçıvanskini yanına çağırdı. Süleyman xan Kalbalı xanın igidliyindən ehtiyat edirdi və onun üsyan etməsindən narahatdı. Ona görə də Kalbalı xanı özü ilə bərabər Tehrana, Ağa Məhəmməd xanın yanına apardı. Kalbalı xan orada 2 il qaldı. Müxtəlif yerlərdə böyük igidliklər göstərdi, qələbələr qazandı. Buna görə də şahın yanında qəhrəman kimi məşhur oldu. Kalbalı xan həm də həqiqəti sevirdi. Digər xalqların da hüququnu qoruyurdu. Ədalətli idi. Müxtəlif xalqların dini ibadətgahlarına ehtiram göstərirdi. Hərbi işin mahir bilicisi idi. Müharibələrdə şir kimi güclü idi. Çox müharibələrdə iştirak etmişdi və həmişə də Böyük Yaradanın köməyi ilə qələbə qazanmışdı. Eramızın 1789-cu (hicri 1238) ilində Təbrizdən şimali-qərbdə yerləşən Əhər hakimi Qaradağlı Mustafa xan Ordubadın Əylis kəndinə hücum etmiş və hər şeyi dağıdıb məhv etmişdi. Həmin vaxt Kalbalı xan öz süvariləri ilə gəlib Mustafa xanın qoşunlarını məğlub etdi və Mustafa xan biabırcasına qaçıb aradan çıxdı" [1, s. 8].

İki ildən sonra Şuşa qalasından olan İbrahim xan dağlı xalqlarından – ləzgilərdən ibarət olan çoxsaylı qoşunla Naxçıvana hücum etdi. O zamanlar Kalbalı xan Naxçıvanda öz qalasında idi. İrəvandan və Xoydan köməyə gələn qoşunlarla birlikdə Kalbalı xanın rəhbərliyi ilə naxçıvanlılar qəhrəmancasına döyüşərək İbrahim xanın qoşununu qaçmağa məcbur etdilər. Kalbalı xanın digər qəhrəmanlıqları da vardır ki, burada hamısından danışmaq olmur.

Bizim eranın 1794-cü ilində (hicri 1243) Ağa Məhəmməd şah Kalbalı xanı özü ilə götürərək İranın cənub-şərqində yerləşən Girmana yürüş etdi. Girman hakimi Lütfəli xan Ağa Məhəmməd xana tabe olmurdu. 8 aylıq mühasirədən sonra Ağa Məhəmməd xan Kalbalı xanın hünəri sayəsində şəhəri tutdu. Ağa Məhəmməd xan Lütfəli xanı tutdu, gözlərini çıxartdırdı. Bir müddətdən sonra Lütfəli xan intihar edərək özünü öldürdü. Girman üzərində qələbəsindən sonra Ağa Məhəmməd xan öz hakimiyyətini möhkəmlətdi.

1795-ci ildə naxçıvanlı sərkərdə Kalbalı xanı özü ilə götürərək, çoxminli qoşunla Qarabağa yürüşə getdi. Qarabağda Şuşa qalasını tuta bilməsə də ətrafdakı kəndləri tutdu, özünə tabe etdirdi. Çoxlu əsir tutdu. Qardaşı Əliqulu xanı 12 min qoşunla İrəvana göndərdi. Məhəmməd xan bir neçə gün İrəvanda qalandan sonra İrəvan xanı Məhəmməd xanın arvadını və qardaşını girov götürdü və Gürcüstana yola düşdü. Çoxsaylı qoşunu görən çar İrakli Tiflisdən qaçdı. Ağa Məhəmməd Tiflisi dağıtdı. Şəhər xarabalığa çevrildi. Tiflisdən çoxlu sayda əsirlər apardılar.

Ağa Məhəmməd şah Qacar Gəncəyə tərəf hərəkət etdi. Naxçıvanlı Kalbalı xan İrəvan xanı Məhəmməd xanın bacısının əri olduğundan, onu İrəvana Kalbalı xan İrəvana yola düşdü və öz qaynı gənc Məhəmməd xanı başa saldı ki, Ağa Məhəmməd xanın yanına getmək lazımdır. Kalbalı xan özü ilə birgə qaynını da götürüb Ağa Məhəmməd xanın yanına yola düşdü. Ağa Məhəmməd xan Qacar sülaləsindən olan İrəvanlı Məhəmməd xanı böyük ehtiramla qəbul etdi. Bir az müddətdən sonra Ağa Məhəmməd xan oradan ayrılıb Muğana yola düşdü.

Burada özünə düşərgə saldı. Burada Məhəmməd xana baha hədiyyələr verib onu bəylərbəyi təyin edib İrəvana yola saldı. Bütün xanlar, o cümlədən Dərbənd, Bakı, Şəki və digər xalqları Ağa Məhəmməd şaha tabe oldular və onun qoşunlarını ərzaqla təmin etdilər. Ancaq Şamaxı xanı Mustafa xan tabe olmadı. Buna görə də Ağa Məhəmməd xan naxçıvanlı igid sərkərdə Kalbalı xanı çoxlu qoşunla Şamaxıya göndərdi. O, Şamaxını Ağa Məhəmməd xana tabe etdirdi.

Bir müddət keçəndən sonra Ağa Məhəmməd xan Kalbalı xanı Şamaxıdan geri çağırdı. Kalbalı xanı təltif etdi və Naxçıvana göndərdi. Özü isə qışı Muğanda keçirib, yenidən Şuşa qalasına hücum etməyi planlaşdırdı [1, s. 7, 9].

Bu əlyazmadakı məlumatlardan görünür ki, naxçıvanlı sərkərdə Kalbalı xan Ağa Məhəmməd xan Qacara sədaqətlə xidmət edib. Araşdırmalar göstərir ki, Kalbalı xanın hünərinin paxıllığını çəkən vəzir Süleyman xanın yalanlarına inanan Ağa Məhəmməd xan isə onun xidmətlərini unudaraq, Kalbalı xanın gözlərini çıxartdırmış və Naxçıvan Kəngərlilərinin nifrətini qazanmışdı.

M.S.Vorontsovun canişinliyi dövründə, 1846-cı ildə “Кавказ” qəzeti çap olunmağa başladı. Qəzetdə əsas mövzulardan biri Qafqaz müharibələrindən idi. Bundan əlavə 1849-ci ildən 1917-ci ilədək “Кавказский календарь” məlumat kitabı çap edilmişdir. 1860-cı ildə “Сборник сведений о кавказских горцах” (1868-1876, 1881), “Акты, собранные Кавказской археографической комиссией” (1866-1904), 1880-ci ildə isə “Сборник материалов для описания местностей и племен Кавказа” (1881-1929) nəşr edilmişdir.

“Qafqaz məcmuəsi – hərbi tarixi gündəlikdir”. O toplu 1876-cı ildən Tiflisdə nəşr olunub. Bu toplu Tiflisdə Qafqaz Hərbi Dairəsinin hərbi-tarixi şöbəsində Qafqaz ordusunun baş komandanı Böyük knyaz Mixail Nikolayeviç Romanovun göstərişi ilə nəşr olunmuşdur. Qeyd edək ki, bu məcmuə 1881, 1891-1893 və 1904-cü illəri çıxmaqla, hər il işıq üzü görmüşdür.

Araşdırmalar göstərir ki, bu hərbi jurnalın yaranma ideyası Böyük knyaz Mixail Nikolayeviç Romanova məxsusdur. O, 1862-ci ildən Qafqazın canişini vəzifəsində işləmiş və Qafqaz ordusunun baş komandanı olmuşdur.

“Qafqaz məcmuəsinin ilk baş redaktoru artilleriya qvardiyasının polkovniki İ.S.Çernyavski olub. Məcmuə Qafqazın Rusiya qoşunları tərəfindən tutulmasına ithaf edilib. Bu jurnalın əsas məqsədi keçmiş hərbi əməliyyatların təcrübəsinin öyrənilməsi və qazanılan qələbənin unudulmaması həm də, gələcək nəsillərə ötürülməsi olmuşdur. Topluda tarixi arxiv sənədləri ilə bərabər, həm də Qafqaz müharibələrində iştirak edən iştirakçıların xatirələri də qələmə alınmış və nəşr edilmişdir. Bu məqsədlə 1874-cü il avqustun 25-də M.N.Romanovun göstərişi ilə saxlanılan materiallar, gündəliklər bir yerə toplanmışdır ki, jurnal müntəzəm nəşr olunsun.

“Qafqaz məcmuəsi”ndə məqalələrin çoxu hərbi tarixçilər tərəfindən yazılmışdır. Ancaq onlar hadisələrin kateqorik olaraq qiymətləndirilməsindən yan keçmişlər. Çünki Qafqaz müharibələrində problemlər çox olmuşdur və bəzi məsələlərdə ciddi senzura vardı. Ona görə də hərbi tarixçilər əsas diqqəti bu müharibələrdə zabitlərin və əsgərlərin necə dözümlü və hünərli olmalarına yönəltmişdilər. Bu səbəbdən hərbi jurnalda həm də etnoqrafik məqalələr də nəşr edilirdi.

Hərbi tarixçi general-mayor A.L.Qizetti tərəfindən jurnalın 1-20 cildləri üçün “Əlifba göstəriciləri” tərtib edilmişdir [2, s. 1-13].

1901-ci ildə “Qafqaz məcmuəsi”nin baş redaktoru hərbi tarixçi “Qafqaz müharibələrinin salnaməçisi” general-mayor V.A.Potto təyin edilmişdir. Onun redaktorluğu dövründə, yəni

1901-1910-cu illərdə, jurnalın 22-30 nömrəsi çap edilib. 1911-ci ildə onun ölümündən sonra jurnala polkovnik V.İ.Tomkoyev başçılıq etmişdir. V.İ.Tomkoyevin vaxtında 31-ci cild nəşr olunub. Jurnalın bütövlükdə çapı 32 cilddir. Axırıncı cild 1912-ci ildə S.S.Esadzenin redaktorluğu ilə nəşr olunmuşdur. 1912-ci ildə nəşr edilmiş 32-ci cilddən (2 hissəli) başlayaraq toplu öz proqramında dəyişiklik edir. Ancaq arxiv sənədlərini çap etmişdir.

"Qafqaz məcmuəsi"ndə Rusiyanın hərbi tarixçilərinin xatirələr və sənədlər əsasında, həm də bəzilərinin iştirakçısı olduğu 1826-1282-ci il Rusiya-İran və 1828-1829-cu il Rusiya-Türkiyə müharibələrinə dair maraqlı məqalələri və yazdığı əsərlərdən hissələr də vardır. Jurnalın bir neçə nömrəsi tamamilə bu müharibələr haqqındadır. Jurnalda general A.L.Qizettinin 1901-ci ildə yazdığı əsərindən də xeyli hissələr topluda çap edilmişdir [2, s. 1-194].

Araşdırmalar göstərir ki, "Qafqaz məcmuəsi"nin hər nömrəsində maraqlı mövzular haqqında məqalələr çap olunmuşdur. Məsələn, toplunun 1-ci nömrəsində "Yermolov" zabitlərindən biri V.A.Andreyevin xatirələrini çap ediblər. O, 1816-cı ildən 1836-cı ilə qədər Əlahiddə Qafqaz korpusunun hərbi hissələrində xidmət etmişdi. Onun xatirələrində A.P.Yermolovun, İ.F.Paskeviçin, A.Ş.Qriboyedovun, A.A.Bestujev-Marlinskinin həyatlarından və fəaliyyətlərindən maraqlı səhifələr vardır [2, s. 1].

Qeyd edək ki, bu topluda Rusiya-İran müharibəsindən (1826-1828), Rusiya-Türk müharibəsindən (1828-1829) ətraflı söhbət açılmışdır [3, s. 1-72,]. "Qafqaz məcmusəsi"ndə V.A.Andreyevin "Yermolov və Paskeviç" tədqiqat məqaləsi də nəşr edilmişdir.

Yuxarıda adlarını çəkdiyimiz yazılarda, xatirələrdə Naxçıvanlı və naxçıvanlı hərbiçilərlə bağlı materiallar da nəşr edilmişdir.

1828-ci ilin martında çar I Nikolay ermənilərə verdiyi vədi yerinə yetirdi. İrəvan və Naxçıvan xanlıqlarını ləğv edib "Erməni vilayəti" deyilən bir qondarma əyalət yaratdı. "Qafqaz məcmuəsi"ndə çar I Nikolayın qraf Paskeviçə göndərdiyi teleqramın mətni çap edilib: "Təbrik edirəm! Nəhayət ki, Böyük Ermənistan yaradıldı" [3]. Burada maraqlı bir nüans var. Çar I Nikolay yazmır ki, Böyük Ermənistan bərpa edildi. Yazır ki yaradıldı. Bu isə ermənilərin guya qədimdən Böyük Ermənistanın olduğu faktını təsdiqləmir.

"Qafqaz məcmuəsi"ndə Rusiya qoşunlarının Naxçıvan ərazisində İran qoşunları ilə döyüşlərindən, Abbasabad qalasının alınmasından bəhs edən əsərlərdən də xeyli hissələr çap edilmişdir. Muravyovun, Zubovun, Pottonun və digərlərinin əsərlərində Naxçıvan Kəngərli süvariləri ilə bağlı yazılar diqqəti cəlb edir. O, yazdığı bir əsərdə general Hüseyn xan Naxçıvanskinin Port-Artur döyüşlərində göstərdiyi qəhrəmanlığı vəsf etmişdir.

**Nəticə.** "Qafqaz ərazilərinin və tayfalarının təsviri üçün materiallar" və "Qafqaz məcmuəsi" toplularında aparılan araşdırmalar göstərir ki, Naxçıvan Kəngərli süvariləri Rusiya imperiyasının ordusunda ləyaqətlə hərbi xidmətdə olmuşlar. Onlar öz döyüş hünərləri və milli hərbi geyimləri ilə nəinki Rusiya ordusunun sərkərdələrini, hətta rus çarlarını heyrətdə qoymuşlar. "Qafqaz məcmuəsi"ndə çap olunan hərbçilərin xatirələrindən və rus tarixçilərinin bu jurnalda çap etdirdikləri əsərlərdə Kəngərli süvarilərinin döyüş hünərlərindən geniş söhbət açmışlar.

## ƏDƏBİYYAT

1. Сборник материалов для описания местностей и племён Кавказа. Выпуск XXIX, Тифлис, 1901,

2. Сборник Кавказа. Т. I: Воспоминания из Кавказской старины В.Андреева. Тифлис, 1880,
3. Сборник Кавказа. Т. XXX: Материалы к истории Персидской войны 1826-1828 г.г. Материалы к истории турецкой войны 1828-1829 г.г. Тифлис, 1910.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: kuliyevm@yandex.ru***

**Musa Rahimoglu-Guliyev**

**THE 19TH CENTURY MILITARY HISTORY OF NAKHCHIVAN IN THE MAGAZINES "MATERIALS FOR THE DESCRIPTION OF THE LOCALITIES AND TRIBES OF THE CAUCASUS" AND "CAUCASIAN COLLECTION"**

The article informs about the creation of the magazine published by the Department of Caucasian Education in Tbilisi in 1881, and the articles in this collection, which tell about the history of Nakhchivan.

The article also discusses the creation of the magazine "Caucasian Collection", which was published on the initiative of Grand Duke Mikhail Nikolaevich. This magazine was published by the Military History Department of the Headquarters of the Caucasian Military District. The main purpose of this magazine was to study the experience of past military campaigns. In addition to historical documents and archival data, this magazine also published the memoirs of participants in military operations. These two magazines published materials about the cavalry of the Nakhchivan Kangarli people and the military actions of the commanders.

The military history of Nakhchivan, which is published in both magazines, is introduced into scientific circulation for the first time.

**Keywords:** *Khan Kalbaly I, Aghamahammad Shah Qajar, Suleiman Khan, Caucasian Wars, Kangarli clan, military history of Nakhchivan, commander.*

**Муса Рагимоглы-Кулиев**

**ВОЕННАЯ ИСТОРИЯ НАХЧЫВАНА XIX ВЕКА В ЖУРНАЛАХ «МАТЕРИАЛЫ ДЛЯ ОПИСАНИЯ МЕСТНОСТЕЙ И ПЛЕМЁН КАВКАЗА» И «КАВКАЗСКИЙ СБОРНИК»**

В статье рассказывается о создании журнала, издававшегося Отделом кавказского просвещения в Тбилиси в 1881 году, и статьях этого сборника, рассказывающих об истории Нахчывана.

Также в статье говорится о создании журнала «Кавказский Сборник», который издавался по инициативе Великого князя Михаила Николаевича. Этот журнал издавался Военно-историческим отделом штаба Кавказсконо военного округа. Основной целью этого журнала являлось изучение опыта прошедших военных кампаний. В этом журнале, кроме исторических документов и архивных данных, публиковались и воспоми-

нания участников боевых действий. В этих двух журналах публиковались материалы о коннице Нахчыванских кенгерлинцев и боевых действиях полководцев.

Военная история Нахчывана, которая опубликована в обоих журналах, впервые вводится в научный оборот.

**Ключевые слова:** *хан Калбалы I, Ага Магомед Шах Каджар, Сулейман хан, Кавказские войны, род Кенгерли, военная история Нахчывана, полководец.*

**Daxilolma tarixi: İlkin variant 10.09.2024**
**Son variant 03.10.2024**

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*